## İstifadəçilərin statistik məlumatlarla təmin olunması barədə keçirilmiş onlayn sorğunun nəticələri

Ölkənin sosial, iqtisadi, demoqrafik, ekoloji həyatında baş verən hadisələr, proseslər kəmiyyət baxımdan öz əksini müxtəlif tələbatlara malik istifadəçilərin marağında olan statistik göstəricilərdə tapır. Statistika orqanının əsas vəzifəsi bu fərqli tələbatlara müvafiq olaraq vaxtlı-vaxtında ayrı-ayrı sahələr üzrə qərəzsiz, dəqiq statistik məlumatların hazırlanması və onun yayılmasının təmin edilməsidir. Bu işin keyfiyyətinin artırılmasının əsas vasitələrindən biri də statistik məlumat istifadəçiləri ilə işin təşkil edilməsi, onların tələbatlarının öyrənilməsi, statistik məlumatlara çıxış kanallarının dəqiqləşdirilməsi, onların statistik məlumatlarla nə dərəcədə təmin olunması, razılıq səviyyəsinin öyrənilməsidir.

Məhz "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"nın icrası çərçivəsində və Dövlət Statistika Komitəsinin 31 iyul 2013-cü il tarixli 21/1 saylı kollegiya qərarında nəzərdə tutulmuş "İstifadəçilərin statistika məlumatlarından qane olma dərəcəsini öyrənən tədqiqatların əhatə dairəsinin genişləndirilməsi, əvvəlki sorğularla müqayisələr apararaq istifadəçilərin istəklərinin ümumiləşdirilməsi və təkliflərin verilməsi", "İstifadəçilərin Dövlətstatkomun saytından nə dərəcədə qane olduqlarını öyrənmək məqsədilə müayinənin keçirilməsi" adlı tədbirlərin icrası məqsədilə statistik məlumat istifadəçiləri arasında sorğu keçirilməsi ilə bu vəzifə reallaşdırılmışdır. Qeyd etmək lazımdır ki, oxşar sorğular əvvəlki "2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı" əsasında da təşkil edilmişdir. 2009 və 2010-cu illərdə istifadəçilərin statistik məlumatlara olan inam səviyyəsinin müəyyən olunması üçün müayinələr keçirilmişdir. Keçirilmiş müayinələr əsasında statistik məlumat istifadəçilərinin məmnunluq və inam indeksləri hesablanmışdır. 10 ballıq qiymətləndirmə sisteminə uyğun olaraq statistik məlumat istifadəçilərinin məmnunluq indeksi 2010-cu ildə 8.4, inam indeksi isə 8.2-ə bərabər olmuşdur.

Bu sorğu əvvəlkilərdən fərqli olaraq onlayn rejimdə keçirilmişdir. Sorğu özündə istifadəçilərin fəaliyyət sahəsini, onların maraq dairəsini, hansı statistik məlumatlara inamının olmasını, statistik fəaliyyətin keyfiyyət baxımdan qiymətləndirməyə, ümumilikdə Dövlətstatkomun fəaliyyətinin dəyərləndirilməsinə imkan verən 29 sualdan ibarət olmuşdur.

31.08.2013 tarixinə sorğuda 610 nəfər iştirak etmişdir. Onlar əsasən dövlət idarəçiliyini, özəl müəssisələri təmsil edənlər, KİV nümayəndələri və fərdi şəxslər olmuşdur. Sorğunun nəticələrindən görmək olar ki, statistik fəaliyyətin bütün sahələri istifadəçilər üçün böyük maraq kəsb edir. Xüsusilə, maraq göstərilən sahələr içərisində ən çox əmək bazarı, əhali və gender statistikası, milli hesablar, təhsil, elm və mədəniyyət, maliyyə və bank, sənaye sahələri üstünlük təşkil edir.

Statistik məlumatların əldə edilməsi mənbəyi kimi Dövlətstatkomun veb-səhifəsinin olması böyük əksəriyyət tərəfindən qeyd edilmişdir. Bundan sonra əsas vacib məlumat mənbəyi kimi Dövlətstatkomun nəşrləri və KİV məlumatları göstərilmişdir.

Sorğunun "Dövlətstatkoma və yaydığı statistik məlumatlara etibar edirsiniz?" adlı sualına iştirakçıların 80.7 faizi "bəli", 12.5 faizi "qismən", 2.8 faizi "xeyr" cavabını bildirmiş, 4 faizi isə "münasibət" bildirməmişdir.

**Cədvəl 1**

**Real vəziyyətə uyğunluğu baxımından Dövlətstatkom tərəfindən verilən aşağıdakı göstəricilərə inam səviyyəsi** (faizlə)

| | İnanıram | Qismən inanıram | İnanmıram | Bilmirəm |
|---|---|---|---|---|
| Əhalinin sayı | 83.6 | 9.1 | 3.9 | 3.4 |
| Əhalinin gəlirləri | 58.7 | 25.3 | 9.7 | 6.3 |
| Yoxsulluq səviyyəsi | 55.3 | 25.2 | 12.2 | 7.3 |
| İşsizlik səviyyəsi | 54.2 | 26.5 | 12.4 | 6.9 |
| Ümumi daxili məhsulun (ÜDM) artım tempi | 68.8 | 15.2 | 7.6 | 8.4 |
| Sənaye istehsalı | 68.9 | 14.5 | 7.3 | 9.3 |
| İnflyasiyanın tempi | 59.7 | 22.8 | 9.0 | 8.5 |
| Orta aylıq əmək haqqı | 65.4 | 22.3 | 7.9 | 4.4 |

Cədvəldən görmək olar ki, sorğu iştirakçıları göstəricilərdən ən çox əhalinin sayı ilə bağlı məlumatlara inanır. Belə ki, rəy bildirənlərin 92.7 faizi bu göstəriciyə inandığını bildirmiş və yalnız 3.9 faizin rəyi mənfi olmuşdur. İnam baxımdan ən aşağı nəticə işsizlik səviyyəsi ilə bağlıdır. Öz rəyini bildirənlərin 80.7 faizi müsbət cavab vermiş və 12.4 faiz isə inanmadığını bildirmişdir.

**Cədvəl 2**

**Göstərilən müddəalara münasibət** (faizlə)

| | Bəli | Qismən | Xeyr | Bilmirəm |
|---|---|---|---|---|
| Dövlətstatkom yaxşı (keyfiyyətli) statistik informasiya təqdim edir | 78.5 | 13.6 | 3.4 | 4.5 |
| Dövlətstatkomun statistik informasiyası daha vacib ictimai hadisələri əks etdirir | 65.6 | 15.1 | 7.1 | 12.2 |
| Dövlətstatkom qərəzsiz məlumatları təqdim edir | 69.7 | 11.0 | 9.1 | 10.2 |
| Dövlətstatkom öz informasiya materiallarını və xidmətlərini istifadəçilərə mütəmadi olaraq təqdim edir | 70.8 | 12.1 | 6.2 | 10.9 |

Sorğunun mühüm suallarından biri Dövlətstatkomun veb-səhifəsi ilə bağlıdır və aşağıdakı nəticələr əldə edilmişdir.

**Cədvəl 3**

faizlə

| | Bəli | Xeyr | Bilmirəm |
|---|---|---|---|
| Veb-saytın dizaynı maraqlıdır | 74.1 | 9.7 | 16.2 |
| Veb-saytın istifadəsi asandır | 83.7 | 10.1 | 6.2 |
| Axtardığım məlumata tez daxil oluram | 76.7 | 15.1 | 8.2 |

Nəticələrdən görmək olar ki, ümumilikdə hər üç meyar üzrə Dövlətstatkomun veb-səhifəsi ilə bağlı rəylər müsbətdir. Sorğu iştirakçılarının demək olar ki, 3/4 hissəsindən çoxu "bəli" cavabını qeyd etmişdir.

Sorğuda iştirak edənlərin 76.5 faizi Dövlətstatkomun yaydığı statistik məlumatları aktual, dolğun olduğunu hesab etmiş, 3.6 faizi bu fikirlə razılaşmamışdır.

İştirakçıların 57.1 faizi Dövlətstatkomun yayım təqvimindən xəbərdar olduğunu bildirmişdir. "Dövlətstatkom statistik məlumatları yayım təqvimində göstərilmiş tarixdə yayır?" adlı suala isə iştirakçıların 64.5 faiz müsbət cavab verib. "Statistik məlumatların dəqiqləşməsi (yenidən baxılması) haqqında informasiya kifayət edicidir?" adlı suala isə 71.5 faiz "bəli" cavabını qeyd edib. "İstifadə etdiyiniz statistik məlumatlarla əlaqəli informasiyanı asan əldə edirsiniz?" adlı suala isə sorğu iştirakçılarının 77 faizi müsbət və yalnız 4.1 faizi mənfi cavab vermişdir. "Statistik məlumatlarla əlaqəli informasiya kifayət qədər aydın və təfsilatlıdır" bəndində isə "bəli" cavab verənlərin payı 73 faiz olmuşdur.

**Cədvəl 4**

İstifadəçilərə xidmət səviyyəsi ilə bağlı rəylər (faizlə)

| | Bəli | Xeyr | Rəyim yoxdur |
|---|---|---|---|
| Dövlətstatkomdan məlumatlarla bağlı izahları və ya şərhləri telefon və ya e-poçt vasitəsilə əldə edə bilirsiniz? | 74.6 | 8.6 | 16.8 |
| Dövlətstatkom statistik məlumatları asan başa düşülən formada təqdim edir? | 86.1 | 4.1 | 9.8 |

"Dövlətstatkomunm statistik məlumatlarının keyfiyyətini beynəlxalq təşkilatların və digər mənbələrin məlumatları ilə müqayisədə necə qiymətləndirirsiniz?" adlı suala cavablar aşağıdakı kimi olmuşdur.

faizlə

| Daha yaxşı | Eyni | Daha pis | Rəyim yoxdur |
|---|---|---|---|
| 11.0 | 56.7 | 24.6 | 7.7 |

“Dövlətstatkomun statistika fəaliyyətinin və məlumatlarının ümumi keyfiyyətini necə qiymətləndirirsiniz?” adlı suala iştirakçıların cavabı aşağıdakı kimi olmuşdur.

faizlə

| Aşağı | Orta | Yaxşı | Yüksək | Rəyim yoxdur |
|---|---|---|---|---|
| 2.1 | 14.4 | 37.5 | 42.1 | 3.9 |

“Ümumilikdə Dövlətstatkomun fəaliyyəti ilə razı olduğunuzu necə qiymətləndirirsiniz?” adlı suala isə cavablar aşağıdakı kimidir.

faizlə

| Aşağı | Orta | Yaxşı | Yüksək | Rəyim yoxdur |
|---|---|---|---|---|
| 2.2 | 14.3 | 38.6 | 41.4 | 3.5 |

Sorğu nəticələrini yekunlaşdıraraq demək olar ki, statistik məlumatların istifadəçilərinin statistik məlumatlara və onların keyfiyyətinə, statistika orqanının fəaliyyətinə münasibəti müsbətdir.

Sorğunun sonunda istifadəçilərin bildirmək istədikləri təklif və tövsiyyələr üçün “Dövlətstatkomun hansı statistik məlumatlarının yaxşılaşdırılmasını məsləhət görərdiniz?” adlı bənd də daxil edilmişdir. Alınan nəticələrdən görmək olar ki, daha çox hesabat formaları və bəzi statistik göstəricilərlə bağlı fikirlər bildirilmişdir. Əsasən hesabatların sayının azaldılması, onlarda təkrarçılığın aradan qaldırılması, bütün hesabatların elektron formada olması, işsizlik və yoxsulluq, kənd təssərüfatı ilə bağlı göstəricilərin daha da təkmilləşdirilməsi, beynəlxalq təcrübənin tətbiqi işinin sürətləndirilməsi təklif edilmişdir.

Onlayn rejimdə keçirilən bu sorğu müntəzəm olaraq keçiriləcək və istifadəçilər üçün Dövlətstatkomun veb-səhifəsində daim aktivdir. Bu tip sorğular Dövlətstatkomun fəaliyyətinin gələcəkdə təkmilləşdirilməli olan istiqamətlərini müəyyən etməyə imkan verir, rəsmi statistika fəaliyyətinin istifadəçilərin tələbatlarına daha dolğun cavab verməsinə, onların zəruri statistik məlumatlarla vaxtlı-vaxtında tam təmin olunması işinin keyfiyyətinin yüksəldilməsinə şərat yaradır.